## PERSONALİA

## PROF. NİZAMİ XUDİYEV - 75



# AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN TARİXİ KONTEKSTİNDƏ PROF. NİZAMİ XUDİYEVİN ROLU

**İradə Kərimova**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Bakı, Azərbaycan**
irade.kerimova.81@mail.ru
**Orcid İD:0000-0002-8057-8333**

**Xülasə**

Görkəmli dilçi alim, türkoloq, əməkdar elm xadimi, ictimai-siyasi xadim, onlarla kitabların müəllifi, pedaqoq, professor Nizami Xudiyevin həyat yolu çox zəngin olmuşdur. Prof. N.Xudiyevin elmi yaradıcılığı çoxşahəli, istiqamətli, mövzu dairəsi baxımından olduqca geniş və əhatəli olmuşdur. O, xeyli sayda sanballı əsərlərin müəllifi olmuşdur. Müəllifi olduğu əsərlərin böyük əksəriyyəti ədəbi dilimizin aktual tədqiqinə həsr olunmuşdur. Müəllif "Azərbaycan ədəbi dili tarixi" adlı fundamental əsərində çox məsuliyyətli və böyük zəhmət tələb edən məsələlərin linqivistik həllinə girişmiş, zəngin canlı dil faktlarına söykənərək nəzəri ümumləşdirmələr aparmış, Azərbaycan ədəbi dilinin tarixini ümumtürk kontekstində araşdırmışdır. Prof. N.Xudiyevin elmi yaradıcılığının şah damarı sayılan bu əsərində Azərbaycan ədəbi dilinin tarixi, müxtəlif dövrlər, mərhələlər üzrə araşdırılmışdır. Onun ədəbi dilimizin tarixi sahəsində yazdığı tədqiqatların dəyəri haqqında M.Şirəliyev, A.Axundov, T.Hacıyev, R.Məhərrəmova, Z.Budaqova, V.Əliyev, M.Qasımov, S.Sadıqova və başqaları yüksək fikirlər söyləmiş, araşdırmanın elmi-tədrisi əhəmiyyətini düzgün müəyyənləşdirməyə çalışmışlar.

**Açar sözlər:** Ədəbi dil, dilçilik, dilçi, xadim, müəllif, tədqiqat.

# В ИСТОРИЧЕСКОМ КОНТЕКСТЕ ЛИТЕРАТУРНОГО ЯЗЫКА АЗЕРБАЙДЖАНА РОЛЬ ПРОФ. НИЗАМИ ХУДИЕВА

**Ирада Каримова**
**Доктор философии по филологии, доцент**
**Азербайджанский Государственный Педагогический Университет**
**Баку, Азербайджан**

**Резюме**

Жизненный путь выдающегося лингвиста, тюрколога, заслуженного деятеля науки, общественного и политического деятеля, автора десятков книг, педагога, профессора Низами Худиева был очень насыщенным. Научное творчество Н.Худиева было многогранным, разнонаправленным, достаточно широким и всеобъемлющим по объему предмета. Он был автором большого количества

известных произведений. Большинство написанных им работ посвящено актуальному изучению нашего литературного языка. В своем фундаментальном труде «История литературного языка Азербайджана» автор приступил к лингвистическому решению весьма ответственных и сложных вопросов, сделал теоретические обобщения, основанные на богатых живых лингвистических фактах, исследовал историю литературного языка Азербайджана в контексте тюркского мира. В этой работе, которая считается основной жилой научного творчества проф.Н.Худиева, исследуется история литературного языка Азербайджана в разные периоды и этапы. М.Ширалиев, А.Ахундов, Т.Гаджиев, Р.Магеррамова, З.Будагова, В.Алиев, М.Гасымов, С.Садыгова и другие выразили высокую оценку ценности его исследований в области истории нашей страны литературный язык, старался правильно определить его значение.

**Ключевые слова:** Литературный язык, языкознание, лингвист, деятель, автор, исследование.

## İN THE HİSTORİCAL CONTEXT OF THE LİTERARY LANGUAG OF AZERBAİJAN, THE ROLE OF PROF. NİZAMİ KHUDİYEV

**Irada Karimova**
**Doctor of Philosophy in Philology, Associate Professor**
**Azerbaijan State Pedagogical University**
**Baku, Azerbaijan**

**Sammary**

An outstanding linguist, turkologist, honored scientist, social and political figure, author of dozens of books, pedagogue, professor Nizami Khudiyev's life path has been very rich. Prof. N. Khudiyev's scientific creativity was multifaceted, multi-directional, and quite broad and comprehensive in terms of the scope of the subject. He was the author of a large number of well-known works. Most of the works he authored are dedicated to the actual study of our literary language. In his fundamental work "History of the Literary Language of Azerbaijan", the author embarked on a linguistic solution of very responsible and demanding issues, made theoretical generalizations based on rich living linguistic facts, and investigated the history of the literary language of Azerbaijan in the context of the Turkic world. In this work, which is considered the main vein of prof.N.Khudiyev's scientific creativity, the history of the literary language of Azerbaijan was investigated in different periods and stages. M.Shiraliyev, A.Akhundov, T.Hajiyev, R.Maharramova, Z.Budagova, V.Aliyev, M.Gasimov, S.Sadygova and others expressed high opinions about the value of his researches in the field of the history of our literary language. tried to determine its importance correctly.

**Keywords:** Literary language, language knowledge, linguist, actor, author, research.

**Annotasiya.** Görkəmli dilçi alim, türkoloq, əməkdar elm xadimi, ictimai-siyasi xadim, onlarla kitabların müəllifi, pedaqoq, professor Nizami Xudiyevin həyat yolu çox zəngin olmuşdur. N.Xudiyev həm elmi-pedaqoji, həm də ictimai-siyasi fəaliyyətinin hər zaman tam mərkəzində dayanmışdır.

Prof. N.Xudiyevin elmi yaradıcılığı çoxşahəli, istiqamətli, mövzu dairəsi baxımından olduqca geniş və əhatəli olmuşdur. Dilçiliyin hansı sahəsindən yazırsa-yazsın orada yenilikçi olmağı bacarmışdır. Onun elmi fəaliyyətində millilik və müasirlik, ictimai fəallıq və obyektivlik aparıcılıq təşkil etmişdir. O, geniş dünyagörüşə, çoxcəhətli bilik və məlumata və bir-birinə yaxın olan müxtəlif elmi istiqamətlərdə nəinki yetkin söz demək, hətta dərin, əhatəli araşdırmalar aparmaq səriştəsinə malik olan bir elm xadimi olmuşdur. Azərbaycan dilçiliyinin bütün dövrləri üzrə N.Xudiyevin dərin məzmunlu elmi əsərləri geniş ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Bu əsərlər (400-dən çox məqalə, 60 kitab və 65 telessenari) Azərbaycanda uzun müddət oxucuların ehtiyac və tələbatını ödəmiş, yeni nəsillərin formalaşması və inkişafında özünəməxsus rol oynamışdır.

**Aktuallıq.** Nizami Xudiyevin tədqiqatlarında dilçiliyin ayrı-ayrı sahələri geniş milli-ictimai məzmun kəsb etmişdir. Onun müəllifi olduğu əsərlərin böyük əksəriyyəti ədəbi dilimizin aktual tədqiqinə həsr olunmuşdur. Yaradıcı şəxsiyyət kimi N.Xudiyev ədəbi dil sahəsində sanballı tədqiqatları ilə Azərbaycan dilçilik elminin inkişafına böyük töhfələr vermişdir. Klassik yazarlarımızın zəngin ədəbi irsi müəllifin əsas tədiqat mövzularından biri olmuşdur. Müəllif "Azərbaycan ədəbi dili tarixi" adlı fundamental əsərində çox məsuliyyətli və böyük zəhmət tələb

edən məsələlərin linqivistik həllinə girişmiş, zəngin canlı dil faktlarına söykənərək nəzəri ümumləşdirmələr aparmış, Azərbaycan ədəbi dilinin tarixini ümumtürk kontekstində araşdırmışdır. Ədəbi dil tarixinin tədqiqat obyekti və predmeti mürəkkəb və çoxşaxəlidir. Müəllif Azərbaycan ədəbi dilinin inkişaf problemlərini və normalarını araşdırmış, ədəbi dilimizin lüğət tərkibinin inkişaf mərhələlərindən də bəhs etmişdir. N.Xudiyev Əbdüləzəl Dəmirçizadə, Afad Qurbanov və Tofiq Hacıyevdən sonra ədəbi dilimizin tarixini özünəməxsus tərzdə dövrləşdirərək, müəllimi görkəmli dilçi alim prof. Ə.Dəmirçizadənin yolunu davam etdirmişdir.

Prof. N.Xudiyevin elmi yaradıcılığının şah damarı sayılan bu elmi əsərində Azərbaycan ədəbi dilinin tarixi, müxtəlif dövrlər, mərhələlər üzrə araşdırılmışdır. Müəllif "Azərbaycan ədəbi dili tarixi" adlı kitabını zamanla təkmilləşdirərək yeni-yeni müddəalarla zənginləşdirmişdir. Onun bu dərsliyini ədəbi dilimizin tarixi sahəsində üçüncü tarixi mərhələyə aid elmi yaradıcılıq nümunəsi hesab etmək olar. Bu sahədə yazdığı tədqiqatların dəyəri haqqında M.Şirəliyev, A.Axundov, T.Hacıyev, R.Məhərrəmova, Z.Budaqova, V.Əliyev, M.Qasımov, S.Sadıqova və başqaları yüksək fikirlər söyləmiş, araşdırmanın elmi-tədrisi əhəmiyyətini düzgün müəyyənləşdirməyə çalışmışlar.

**Metod.** Məqalədə istifadə olunmuş əsas metod müqayisəli metoddur. Bəzi məsələlərin aydınlaşdırılmasında qarşılaşdırma, müşahidə və təsviri metoddan istifadə olunmuşdur.

**Giriş.** Görkəmli dilçi alim, türkoloq, əməkdar elm xadimi, ictimai-siyasi xadim, onlarla kitabların müəllifi, pedaqoq, professor Nizami Xudiyevin həyat yolu çox zəngin olmuşdur. N.Xudiyev həm elmi-pedaqoji, həm də ictimai-siyasi fəaliyyətinin hər zaman tam mərkəzində dayanmışdır.

Prof. N.Xudiyevin elmi yaradıcılığı çoxşahəli, istiqamətli, mövzu dairəsi baxımından olduqca geniş və əhatəli olmuşdur. Dilçiliyin hansı sahəsindən yazırsa-yazsın orada yenilikçi olmağı bacarmışdır. Onun elmi fəaliyyətində millilik və müasirlik, ictimai fəallıq və obyektivlik aparıcılıq təşkil etmişdir. O, geniş dünyagörüşə, çoxcəhətli bilik və məlumata və bir-birinə yaxın olan müxtəlif elmi istiqamətlərdə nəinki yetkin söz demək, hətta dərin, əhatəli araşdırmalar aparmaq səriştəsinə malik olan bir elm xadimi olmuşdur. Azərbaycan dilçiliyinin bütün dövrləri üzrə N.Xudiyevin dərin məzmunlu elmi əsərləri geniş ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Bu əsərlər (400-dən çox məqalə, 60 kitab və 65 telessenari) Azərbaycanda uzun müddət oxucuların ehtiyac və tələbatını ödəmiş, yeni nəsillərin formalaşması və inkişafında özünəməxsus rol oynamışdır. Bu statistikanın arxasında alimin böyük zəhməti, məhsuldar yaradıcılığı və yeni ideyalara yol açan fədakarlığı dayanır.

Nizami Xudiyevin tədqiqatlarında dilçiliyin ayrı-ayrı sahələri geniş milli-ictimai məzmun kəsb etmişdir. Onun müəllifi olduğu əsərlərin böyük əksəriyyəti ədəbi dilimizin aktual tədqiqinə həsr olunmuşdur. Yaradıcı şəxsiyyət kimi N.Xudiyev ədəbi dil sahəsində sanballı tədqiqatları ilə Azərbaycan dilçilik elminin inkişafına böyük töhfələr vermişdir. Klassik yazarlarımızın zəngin ədəbi irsi müəllifin əsas tədiqat mövzularından biri olmuşdur. Müəllif "Azərbaycan ədəbi dili tarixi" adlı fundamental əsərində çox məsuliyyətli və böyük zəhmət tələb edən məsələlərin linqivistik həllinə girişmiş, zəngin canlı dil faktlarına söykənərək nəzəri ümumləşdirmələr aparmış, Azərbaycan ədəbi dilinin tarixini ümumtürk kontekstində araşdırmışdır. Müəllif Azərbaycan ədəbi dilinin inkişaf problemlərini və normalarını araşdırmış, ədəbi dilimizin lüğət tərkibinin inkişaf mərhələlərindən də bəhs etmişdir. N.Xudiyev Əbdüləzəl Dəmirçizadə, Afad Qurbanov və Tofiq Hacıyevdən sonra ədəbi dilimizin tarixini özünəməxsus tərzdə dövrləşdirərək, müəllimi görkəmli dilçi alim prof. Ə.Dəmirçizadənin yolunu davam etdirmişdir. Onun elmi uğurlarına ilk sevinən də Azərbaycan dilçilik elminin ilk korifeylərindən olan Ə.Dəmirçizadə olmuşdur. Əsərdə hər dövrün ictimai-tarixi şəraiti, normaları və üslubları ayrıca tədqiqata cəlb olunmuşdur. Müəllif klassik yazarlarımızın dilini və üslubunu təhlillər apararaq, sadə və rəvan dillə oxucularına çatdırmağa çalışmışdır. Azərbaycan ədəbi dilinin tarixini belə obyektiv və düzgün yönümdə araşdırmaq, uğurlu elmi nəticələr əldə edə bilmək filoloq alimdən ensiklopedik bilik tələb edir. Çünki ədəbi dil tarixinin tədqiqat obyekti və predmeti mürəkkəb və çoxşaxəlidir. Hər şeydən öncə, fundamental yüksək elmi-metodik tələblərə hərtərəfli cavab verən dərslik, yaxud elmi-tədqiqat əsəri (monaqrafiya) yazmaqdan ötrü dilçiliyin bütün sahələrini, şöbələrini dərindən bilmək lazımdır. Prof. N.Xudiyevin elmi yaradıcılığının şah damarı sayılan bu əsərində Azərbaycan ədəbi dilinin tarixi, müxtəlif dövrlər,

mərhələlər üzrə araşdırılmışdır. Müəllif “Azərbaycan ədəbi dili tarixi” adlı kitabını zamanla təkmilləşdirərək yeni-yeni müddəalarla zənginləşdirmişdir. Onun bu dərsliyini ədəbi dilimizin tarixi sahəsində üçüncü tarixi mərhələyə aid elmi yaradıcılıq nümunəsi hesab etmək olar. Bu sahədə yazdığı tədqiqatların dəyəri haqqında M.Şirəliyev, A.Axundov, T.Hacıyev, R.Məhərrəmova, Z.Budaqova, V.Əliyev, M.Qasımov, S.Sadıqova və başqaları yüksək fikirlər söyləmiş, araşdırmanın elmi-tədrisi əhəmiyyətini düzgün müəyyənləşdirməyə çalışmışlar.

Dilçiliyin tarixindən bəhs edərkən N.Xudiyev yazır ki, bu elmin tarixi kökləri nə qədər çox qədimə (deyək Mahmud Kaşğarlıya) getsə də, onun müasir simasını, xarakterini Bəkir Çobanzadə, Məmmədağa Şirəliyev, Əbdüləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə kimi tədqiqatçılar müəyyənləşdiriblər ( 2. s.186) .

N.Xudiyev xeyli sayda sanballı əsərlərin müəllifi olmuşdur. Onun seçilmiş əsərləri 14 cilddə çap olunmuşdur. Bu da onun böyük təcrübəsinin, geniş müşahidələrinin, zəngin mütaliəsinin göstəricisidir. Nizami müəllimin məsələlərə hansı prizmadan yanaşması, nəyi diqqətə alıb, necə dəyərləndirməsi də olduqca əhəmiyyətlidir. Onun kitabları ədəbi dil, tərcümə dili və s. sahələrdə sistemli tədqiqatlardan hesab olunur. Ə.Dəmirçizadə, H.Mirzəzadə, T.Hacıyev kimi ədəbi dil tarixçiləri ilə bir sırada adı çəkilən N.Xudiyev bu sahədə bir neçə fundamental əsərlər yazmışdır. Alimin ədəbi dillə bağlı yazdığı əsərləri sırasında “Azərbaycan ədəbi dilinin lüğət tərkibinin inkişafı”. Bakı, 1986.; “Azərbaycan ədəbi dilinin zənginləşmə yolları”. Bakı, 1987.; “Azərbaycan ədəbi dilinin sovet dövrü”. Bakı, 1989.; “Tərcümə ədəbiyyatı və ədəbi dilimiz”. Bakı, 1991.; “Azərbaycan ədəbi dilinin təşəkülü”. Bakı, 1991.; “XIII-XIV əsrlər Azərbaycan ədəbi dili”. Bakı, 1992.; “XV-XVI əsrlər Azərbaycan ədəbi dili”. Bakı, 1994.; “Azərbaycan milli ədəbi dilinin yaranması və inkişafı”. Bakı, 1994.; “XX əsr Azərbaycan ədəbi dili”. Bakı, 1995.; “Heydər Əliyev və Azərbaycan dili”. Bakı, 1997.; “Ədəbi dilimiz efirdə və ekranda”. Bakı, 2000.; “Radio, televiziya və ədəbi dil”. Bakı, 2001.; “Xalqın tarixi haqqı: dilimiz, varlığımız”. Bakı, 2004.; “Cənubi Azərbaycanda ədəbi dilimizin dünəni və bu günü”. Bakı, 2011.; “Azərbaycan ədəbi dili tarixindən seminar məşğələləri”. Bakı, 2015. adlı müəllifi olduğu kitabları göstərmək olar.

N.Xudiyevin yaradıcılığında, yazmış olduğu telessenariləri də xüsusi yer tutur. O, telessenarilərini canlı ədəbi danışıq dili ilə tamaşaçıya çatdırmağı bacarmışdır. Müəllifin “Heydər Əliyev və Azərbaycan dili”, “Fenomen”, “Xilaskar”, “Akademik Zərifə Əliyeva”, “Tikdim ki, izim qala”, “Zirvəyə doğru”, “Əsrin müqaviləsi”, “Türk dünyası”, “Türklər”, “Gün doğandan gün batana. Qədim türklər” və s. bu kimi onlarla tarixi, etnoqrafik telessenariləri ekranlaşdırılmışdır. Adı çəkilən hər bir sənədli film öz dövrünün salnaməsidir.

Prof. N.Xudiyev Azərbaycan dilçiliyi sahəsində görkəmli dilçi alim olmaqla yanaşı, həm də təcrübəli pedaqoq olmuşdur. O, çalışdığı universitet haqqında xatirələrində yazır ki, mənim üçün Azərbaycan Dövlət Pedaqoji Universiteti ziyarət etdiyim Məkkə, Mədinə və Kərbəladan sonra ikinci qibləgahımdır. Bu qibləgahda mən elmi-tədqiqatla məşğul olmuş, müəllimlik etmişəm. Bu elm və təhsil ocağında mənə 52 il oxumaq və işləmək səadəti nəsib olub (2.s.302).

Nizami müəllim bizə III kursda oxuyarkən “Azərbaycan ədəbi dili tarixi” fənnindən mühazirə məşğələləri keçmişdir. Ədəbi dilimizin tarixini dərinliyi ilə öz tələbələrinə həvəslə öyrədən bir müəllim kimi biz tələbələrinin yaddaşında qalmışdır. Azərbaycan dilçiliyi kafedrasında müəllim kimi fəaliyyətə başladıqdan sonra müəllimimlə bərabər çiyin-çiyinə bu fənni tələbələrimə sevə-sevə tədris etməyə başladım.

**Nəticə.** Prof. N.Xudiyevin məhsuldar elmi fəaliyyəti onlarla çap olunmuş monoqrafiyaları, dərslikləri, dərs vəsaitləri və 400-ə yaxın elmi və publisistik məqalələri hər zaman onu elm camiəsinin nümayəndələri ilə yanaşı tələbələrinin də gözündə ucaltmışdır. Bu gün də onun tələbələri, doktorantları müəllimlərinin onlara öyrətdiyi bilikləri gənc nəslə həvəslə öyrətməkdədirlər. Onlar yaxşı bilirlər ki, elm sərf etdikcə artan bir xəzinədir.

Nizami Xudiyev hər şeydən öncə vətənini sevən bir vətəndaş olmuşdur. Məhz bu amil onun görkəmli ziyalı olmaqla yanaşı həm də ictimai xadim kimi tanınmasına imkan vermişdir. Onun vətəndaşlıq mövqeyindən danışarkən onu da xatırlamaq yerinə düşər ki, o, həm də dövlətçilik ənənələrinin qorunmasında fəal rol oynayan müasirlərimizdən olmuşdur.

Ömür yalnız yaşanmış illərin sayı ilə ölçülmür. Həm də bu illər ərzində gördüyün işlərin silqəti, arzu və istəyin sədası və harayını da özündə yaşadır. Beləliklə prof. N.Xudiyevin elmimizə verdiyi töhfə qətiyyən kəmiyyət parametrləri ilə ölçülə bilməz, burada ən vacibi alimin elmə, ictimaifikrə, təfəkkür tərzinə gətirdiyi novatorluq, yeni keyfiyyətdir. Alimin elmin inkişafı və tərəqqi naminətəmənnasız gördüyü işlərdir. Bunun da öhdəsindən professor Nizami Xudiyev layiqincə gəlməyi bacarmışdır.

**İstifadə olunmuş ədəbiyyat**


**1.** Xudiyev N. Azərbaycan ədəbi dili tarixi. Bakı, 2018. 632 s.

**2.** Xudiyev N. Ömürdən səhifələr. Bakı, 2018. 704 s.

**3.** Xudiyev N. Professor Nizami Xudiyevin həyatı və yaradıcılıq yolu. Bakı, 2019, 352 s.

**4.** Kazımov İ. Yaradıcılıq kredosu, yaxud özünüifadənin təsdiqi. “Kredo” qəzeti, Bakı, 08 aprel 2019. Səh.12.